DÖVLƏT ATRİBUTU

# Dövlət Bayrağımız suverenliyimizin əbədi rəmzidir

**9 Noyabr - Dövlət Bayrağı Günü xalqımızın milli qürurunu, müstəqillik əzmini və dövlətçilik düşüncəsini əks etdirən əlamətdar tarixdir. Bu gün hər bir azərbaycanlı üçün müqəddəsdir. Çünki üçrəngli Bayrağımız bu torpaqlarda azadlığın, suverenliyin, həmrəyliyin və qalibiyyətin rəmzinə çevrilib.**



Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli, ay-ulduzlu Bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da dövlət rəmzi kimi qəbul edilib. Türkçülük, müasirlik və İslam sivilizasiyasına mənsubiyyət ideyalarını özündə birləşdirən bu bayraq, xalqımızın milli özünüdərkini və azadlıq iradəsini təcəssüm etdirib. 1920-ci ildə Cümhuriyyətin süqutundan sonra endirilən bayraq 70 ildən sonra yenidən ucaldıldı - 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tarixi qərar qəbul olundu. Bununla Azərbaycanın gələcək müstəqilliyinin simvolu olan müqəddəs üç rəng yenidən dövlət səviyyəsində təsdiqləndi.

### Ulu Öndər Heydər Əliyev - Dövlət rəmzlərinə hörmətin və milli ruhun memarı

Müstəqil Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyev dövlət rəmzlərini milli ruhun, vətənpərvərlik duyğusunun və dövlətçilik şüurunun əsas dayağı kimi dəyərləndirirdi. Onun təşəbbüsü ilə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" Qanunu qəbul etdi, elə həmin ilin oktyabrında isə "Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri bərpa olundu. Ulu Öndər Heydər Əliyev deyirdi: "Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, Vətənimizə, millətimizə olan sevgi və sədaqətin rəmzidir."

Onun siyasi irsi sayəsində Bayrağımıza olan məhəbbət və hörmət müstəqil dövlətin ideoloji dayaqlarından birinə çevrildi.

### Prezident İlham Əliyev - üçrəngli Bayrağı zirvələrdə dalğalandıran Lider

Ulu Öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev dövlət rəmzlərinə, xüsusilə də üçrəngli Bayrağımıza yüksək dəyər verir. Onun 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla 9 noyabr tarixi ölkəmizdə Dövlət Bayrağı Günü kimi təsis edildi.

Prezident İlham Əliyevin təşəbbüsü ilə paytaxt Bakıda yaradılan Dövlət Bayrağı Meydanı və Dövlət Bayrağı Muzeyi xalqımızın milli rəmzlərinə olan ehtiramın parlaq təzahürüdür. Meydanda dalğalanan 162 metrlik bayraq dayağı uzun illər dünya üzrə ən hündür bayraq kimi qeydə alınıb. Dövlət başçısının sözləri ilə desək: "Bizim Bayrağımız qürur mənbəyimizdir, canımızdır, ürəyimizdir."

### Bayrağımız Zəfər rəmzidir

2020-ci il sentyabrın 27-dən noyabrın 8-dək tarixlərində Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı möhtəşəm Qələbə üçrəngli Bayrağımızı əbədi olaraq Qələbə simvoluna çevirdi. 30 il işğal altında qalmış torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Bu torpaqlarda ucaldılan Azərbaycan Bayrağı 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradında Azadlıq meydanına gətirildi və tariximizin qürur səhifəsinə yazıldı.

2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndidə Azərbaycan Bayrağını ucaldaraq xalqa müraciəti həmin Qələbənin rəmzi anına çevrildi: "Biz bu tarixi yaratdıq, bu Qələbə əbədi bizimlə olacaq."

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunduqdan sonra artıq Müqəddəs Bayrağımız düşmən tapdağından azad olunan qədim yurd yerlərimizdə, əzəli torpaqlarımız olan Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Ağdamda, Laçında, Kəlbəcərdə, Hadrutda, Suqovuşanda, Şuşada, Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə digər kənd və qəsəbələrimizdə qürurla dalğalanmaqdadır. Bütün bunlar Azərbaycan tarixində misli görünməmiş nailiyyətlərdir və bu tarixi nailiyyətlərin memarı cənab İlham Əliyevdir. Üçrəngli Bayrağımızın azad olunmuş torpaqlarımızda dalğalanmasını təmin etməklə Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi, onun ideallarına sadiqliyini bir daha nümayiş etdirdi.

### Milli birliyin, vətənpərvərliyin və azad düşüncənin təcəssümü

Dövlət Bayrağı bu gün Azərbaycanın bütün rəsmi qurumlarında, beynəlxalq təşkilatların iqamətgahları qarşısında, diplomatik nümayəndəliklərdə, eləcə də dünya idman arenalarında qürurla dalğalanır. İdmançılarımızın qələbələri, hərbi paraddakı addımlar və azad edilmiş şəhərlərimizdə ucalan bayraqlar milli həmrəyliyin rəmzidir.

Bayrağımıza ehtiram xalqın Vətənə, dövlətə sədaqətinin təzahürüdür. Bu gün üçrəngli Bayraq altında birləşən Azərbaycan xalqı müstəqilliyinin qorunması, dövlətçiliyinin möhkəmlənməsi və azad gələceyinin təmin olunması naminə vahid amal ətrafında sıx birləşib. Dövlət Bayrağı Günü təkcə bir tarixi hadisənin ildönümü deyil, həm də milli şüurun, dövlətçilik ənənələrinin və qalib xalq ruhunun bayramıdır.

Üçrəngli Bayrağımız xalqımızın müstəqillik arzularının, azadlıq ideallarının və gələcəyə inamının simvoludur. Bu bayraq Azərbaycanın əbədiliyinin, gücünün, qürurunun təcəssümüdür və daim ucalarda dalğalanacaq.

Orxan Vahidoğlu,
*"İki sahil"*